UOT: 599.4

# LƏNKƏRAN TƏBİİ VİLAYƏTİNDƏ YAYILMIŞ DAĞ KORÇASININ (*ELLOBİUS LUTESCENS* THOMAS, 1897) BƏZİ EKOLOJİ XÜSUSİYYƏTLƏRİ

**MƏMMƏDRZAYEVA E. T.**
*AMEA Zoologiya institutu*

**Abstract**. In the mountainous part of the Lankaran natural province, the sex composition of the species Ellobius lutescens Thomas (1897), as well as the external characteristics of males and females, were studied. In spring and summer, females predominate over males. These chapters are dominated by females. The dominance of females is associated with an increase in the intensity of reproduction; in the fall, males predominate. This ratio serves to prevent an increase in the number of animals in the fall, in order to keep the population in optimal condition. Males and females of the mountain bark differ little in weight and body size (body length, paw and ear height). The body weight of males is 39.5-60.5 g, of females - 36.8-47.2 g, respectively. The difference between men and women is correct (t = 2.7, P 0, 001).
**Keywors:** *eksteryer, season, dominant, body weight, body length, confidence*

## GİRİŞ

Keçmiş SSRİ ərazisində korça (Ellobius Fischer von Waldheim, 1814) cinsinə 4 növ daxil edilir (adi korça E.talpinus Pallas, 1770, şərqi korça-E. tancrei Blazius, 1884, Əfqan korçası-E.fuscocapillus Blyth, 1843, dağ korçası- E.lutescens Thomas, 1897). Birinci növ əsasən Ukrayna və keçmiş SSRİ ərazisinin şimal-qərb və Novosibirsk vilayətinin qərb hissəsində rast gəlinir. İkinci növ Amudərya çayından başlayaraq şərqə doğru Monqolustan və şimal-qərbi Çində rast gəlinir. Üçüncü nov Türkmənistanın cənubi, şimal-qərbi İran , cənub-qərbi Pakistan, şimal-qərbi Hindistanda qeydə alınır. Sonuncu iki növün coğrafi dəyişkənliyi haqda məlumatların olmaması onların kifayət qədər öyrənilmədiyini göstərir. Dördüncü növ Azərbaycan ərazisindən başqa, Türkiyə və qərbi İranda rast gəlinir [1]. Dag korçası (E.lutescens) Azərbaycan ərazisində kiçik areala (Lənkəran təbii vilayəti, Orta Araz ) malik olan növlərdən biridir. Azərbaycanda mozaik məskənləri Talışın Zuvand (Diabar), Naxçıvan vadisində 100- 2540 m yüksəklikdə rast gəlinir. Əvvəlki iki növ axırıncı iki növə nisbətən yaxşı öyrənilmiş və onların coğrafi dəyişkənlikləri (yarımnövləri) haqqında məlumatlar toplanmışdır. Azərbaycan ərazisində yalnız bir növ (*E.lutenscens*) yayılmış və onun yayılması haqqında məlumatlara az rast gəlinir. Onların həyat tərzi haqqında məlumatlar azdır. Bu onunla əlaqədardır ki, onlar torpaqaltı həyat tərzinə malikdir və torpaq altında olan heyvanları öyrənmək tədqiqatçılar üçün çətinlik yaradır.

*E.lutenscens* növünün haqqında məlumatların azlığı onun tədqiqinə səbəb olmuşdur.

## MATERİAL VƏ METODİKA

Material son illərin yaz, yay və payız fəsillərində Lerik rayonunun Qosmolyan kəndi ətrafında əldə edilmişdir. Dağ korçası meyvə bağlarında, müxtəlif otların bitdiyi, ətraf çəmənlikləri suvaran arxlar boyunca yayılmışdır. Yeraltı həyat tərzi keçirən dağ kor siçanları nadir hallarda yer üstünə çıxır. Yer üstündə qurulmuş tələlərə yaxın gəlmədiyi üçün Almaniyadan gətirilmiş xüsusi silindirikşəkilli diritutan tələlərdən istifadə olunmuşdur. Bunun üçün dağ korçasının torpaqaltı təzə yolları tapılması üçün torpaq 40-60 sm dərinliyində qazılmış və onların torpaqaltı yuva yollarına silindirik diritutan tələlər yerləşdirilmişdir. Hər gün 10 tələdən istifadə olunmuş və bir neçə gün ərzində dağ korçasının 22 fərdi tutulmuşdur. Dağ korçası kolonial növdür. Öyrənilən ərazidə bir hektarda 5 fərd qeydə alınmışdır. Növ Azərbaycanın Qırmızı Kitabına (2) daxil edildiyi üçün diri tutulmuş fərdlərin eksteryer əlamətləri götürüldükdən sonra təbiətə buraxılmışdır. Növün təyinində F.A.Tembotovanın (3) təyinat kitabından istifadə edilmişdir.

## NƏTİCƏ VƏ MÜZAKİRƏ

Əldə olunmuş dağ korçası növünün fərdlərinin bədən uzunluğu 150 mm-ə qədərdir. Gözləri olduqca xırdadır, qulaq seyvanı olmur. Quyruğu dal pəncədən qısadır. Pəncənin alt hissəsi çılpaqdır. Alt və üst çənədəki kəsici dişlər olduqca irəli çıxmışdır.

Yaşayış yeri və həyat tərzi. Dağ korçası dağlıq yarımsəhralarda efemer bitkilər bitən yumşaq torpaqlarda yaşamağa uyğunlaşmışdır. Əsasən bitki növləri ilə qidalandığından başı və güclü kəsici dişləri ilə uzun yeraltı yollara malik yuvalar qazır və belə yuvaların çıxışı olmur. Çünki bu zaman heyvan, torpağı 20-25 sm diametrli topaları bir-birindən müxtəlif məsafələrdə yerin üstünə atır. Yuvalarında ehtiyat qidanı toplamaq üçün anbar olur. Ehtiyatı əsasən müxtəlif bitkilərin soğanaqlarından, kökcüklərindən toplayır. Dağ korçası yuva qazarkən torpağı boşaldırki, bu da öz növbəsində bitkilərin məhsuldarlığının artmasına səbəb olur.

Ədəbiyyat məlumatlarına görə, yuva kameraları 1-4 metr dərinlikdə yerləşir. Yuvalardan çıxan qidalanma yollarının mürəkkəb sistemi yer səthinə yaxın keçir. Bir yuvada bir ailəyə məxsus onadək fərd yaşayır. Əsas etibarilə bitkilərin yeraltı və ya yerüstü hissələri ilə qidalanırlar. Bütün il boyu fəaldırlar. Yayda güclü istilər və quraqlıq zamanı fəallıqları kəskin aşağı düşür. Qida ehtiyatı toplayırlar [4].

Tərəfimizdən müəyyən olunmuşdur ki, yuva kameraları 1 metrdən dərinə getmir. Buna səbəb tədqiq olunan ərazidə torpaq örtüyünün quru olması və bir metr dərinlikdə daş suxurlarının olmasıdır.

Dağ korçasının 2012-ci ilin fəsillər üzrə cinsiyyət nisbətinin dəyişməsi cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Dağ korçasının 2012-ci ilin fəsillər üzrə cinsiyyət nisbətinin dəyişməsi**

| Fəsillər | n | ♂ | | ♀ | |
|---|---|---|---|---|---|
| | | n | % | n | % |
| yaz | 12 | 4 | 33,3 | 8 | 66,6 |
| yay | 4 | 1 | 25.0 | 3 | 75.0 |
| payız | 6 | 5 | 83,3 | 1 | 16,6 |

Cədvəldən göründüyü kimi, yaz və yay fəslində dişi fərdlər erkək fərdlərə nisbətən üstünlük təşkil edir. Dişi fərdlərin dominantlığı çoxalma intensivliyinin yüksəlməsindən xəbər verir. Payızda isə erkək fərdlər dişi fərdlər üzərində dominantlıq edir. Belə nisbət payızda heyvanların say artımının qarşısını alaraq , onun optimal vəziyyətdə saxlanılmasına xidmət edir.

Zaqafqaziya korçasının kütlə (q) və bədən ölçülərinin (mm) dəyişkənliyi 2-ci cədvəldə verilir.

**Cədvəl 2**

**Zaqafqaziya korçasının kütlə (q) və bədən ölçülərinin (mm) dəyişkənliyi**

| **Bədən ölçüləri** | **Cins** | **n** | **lim** | **M** | **m** | **t** | **p** |
|---|---|---|---|---|---|---|---|
| **Bədən kütləsi** | ♂ | 6 | 39,5-60,5 | 53,8 | 3,4 | 2,7 | <0,001 |
| | ♀ | 4 | 36,8-47,2 | 42,0 | 2,8 | | |
| **Bədən uzunluğu** | ♂ | 7 | 103-143,4 | 114,3 | 6,1 | -0,1 | >0,2 |
| | ♀ | 5 | 102,2-161,3 | 116,3 | 16,8 | | |
| **Quyruğun uzunluğu** | ♂ | 7 | 9,0-14,2 | 11,3 | 0,7 | -0,3 | >0,2 |
| | ♀ | 5 | 9-15,2 | 11,7 | 1,4 | | |
| **Pəncə uzunluğu** | ♂ | 7 | 17,9-23,4 | 20,0 | 0,7 | 0,6 | >0,2 |
| | ♀ | 5 | 18-21,0 | 19,4 | 0,7 | | |

Beləliklə, Lənkəran təbii vilayətində yayılmış dağ korçasının kütlə və bədən ölçüləri erkək və dişi fərdlər arasında müqayisəli şəkildə öyrənilmişdir. Cədvəldən göründüyü kimi, bədən uzunluğu, pəncə və qulaq hündürlüyünə görə erkək və dişi fərdlər arasında fərq azdır. Bədən kütləsi erkəklərdə 39,5-60,5, dişilərdə isə uyğun olaraq 36,8- 47,2 q –dır. Cədvəldən göründüyü kimi erkək və dişi fərdlər arasında fərq həqiqidir (t= 2,7, P 0, 001).

## ƏDƏBİYYAT


1. Громов И.М., Ербаева Е.А. Млекопитающие фауиы России и сопредельиых территории. Саикт-Петербург: 1995, -520 стр.
2. Azərbaycan Respublikasının Qirmizi Kitabı, II nəşr / -Bakı, -2013. -517 səh. (Məməlilər səh. 409-497)
3. Темботова Ф.А. Млекопитающпе Кавказа и омывающих его морей. Москва, 2015, -351 стр.
4. Млекопитающпе фауиы СССР. Част 1. Издательства Академии иаук СССР. Москва – Леииииград, 1963, -642 стр.